

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 139 (23.781)

4 avqust 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına Bakıda 6-cı, ölkə üzrə isə 21-ci olan bu "ASAN xidmət" mərkəzi barədə məlumat verib.

Bildirilib ki, 6 saylı mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq, bütün vətəndaşlara, ümumilikdə, 320-dən çox xidmət göstərəcək. Hazırda fəaliyyət göstərən 20 "ASAN xidmət" mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. Dövlətimizin başçısına 16 ölkədən 500-dən çox iştirakçının qatıldığı Qlobal Müdafiə Texnologiyaları Hakatonu və Vətən müharibəsində tvit siyasəti barədə də məlumat verilib.



## Culfa rayonunun Yaycı kəndində içməli su şəbəkəsi qurulur






Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsi kimi əhalinin rifahının və kommunal-məişət şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılır, yaşayış məntəqələrində yeni içməli su sistemləri qurulur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Müstəqil Azərbaycanda hər bir insan üçün vacib olan su təchizatı məsələləri uğurla icra edilir. Bu, insanların sağlamlığına qoyulan investisiyalardır".***

Avqustun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Culfa rayonunun Yaycı kəndində qurulacaq içməli su şəbəkəsinin layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, Gilançay yatağında müxtəlif diametrli borularla 16 baxış quyusu olan 516 metrlik kaptaj və ətrafında selyönəldici bənd tikiləcəkdir. Kaptajdan su anbarlarına qədər plastik borularla 13,4 kilometr xətt çəkiləcək, boru xətti üzərində 5 havaburaxıcı və 7 suboşaldıcı quraşdırılacaqdır. Su natrium hipoxloridlə dezinfeksiya olunaraq hər birinin tutumu 1000 kubmetr olan 2 su anbarına yığılaraq öz axını ilə şəbəkəyə veriləcəkdir.

Layihəyə əsasən kənddə 138,5 kilometr daxili su şəbəkəsi çəkiləcək və 1950 evə su verilərək sayğac quraşdırılacaqdır. Su şəbəkəsi üzərində 6 yanğın hidrantı və qəza zamanı xətlərdən suyun boşaldılması üçün 14 suboşaldıcı və müxtəlif diametrli 141 siyirtmə quraşdırılacaqdır. Yerin relyefindən asılı olaraq mənzillərə 2-5 bar arasında təzyiqlə su veriləcəkdir. Bununla da kənd sakinləri fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin olunacaqlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Yaycı kəndinin içməli su təminatı vacib məsələdir. Ona görə ki, kənd muxtar respublikanın böyük yaşayış məntəqələrindəndir. Vaxtilə bu kəndin su təchizatının yaxşılaşdırılması üçün müəyyən işlər görülmüşdür. Ancaq bu gün müasir tələblər səviyyəsində yeni içməli su şəbəkəsinin qurulmasına ehtiyac var idi. Gilançayda tikiləcək kaptajdan 14 kilometrə yaxın aparıcı xətt və kənddaxili 140 kilometrə yaxın daxili su xətti çəkiləcəkdir. Bu, böyük layihədir. Lakin muxtar respublikanın tikinti təşkilatlarının imkanları və yerli istehsal imkan verəcəkdir ki, bu layihə də qısa müddətdə başa çatdırılsın. Su xətti çəkilərkən, əsasən, yerli istehsal olan tikinti materiallarından istifadə olunacaq, iş keyfiyyətlə başa çatdırılacaqdır.

Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elnur Abbasov kənd sakinləri adından minnətdarlıq edərək demişdir: "Naxçıvanın hər yeri abadlaşır, inkişaf edir, müasirləşir. Eynilə də bu abadlaşdırma işləri Culfa rayonunun hər bir kəndində görülmüş, bütün kəndlərdə yenidənqurma işləri aparılmışdır. Bir neçə il bundan əvvəl Yaycı kəndində ərazilərin suvarılması üçün 3 nasos stansiyası qurulmuşdur. Bütün inzibati binalar yenidən qurularaq müasir avadanlıqlarla təchiz edilmiş, kənd sakinlərinin istifadəsinə verilmişdir. İndi isə sakinlərin içməli su problemi öz həllini tapacaqdır. Bu problemin aradan qaldırılması bütün kənd sakinlərinin sevincinə səbəb olmuşdur".

Kənd ziyalısı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, Ali Məclisin deputatı Fərəc Fərəcov demişdir: "Ali Məclis Sədrinin kəndimizə, eləcə də muxtar respublikanın digər bölgələrinə səfərləri quruculuq tədbirləri ilə yadda qalır. Naxçıvanda ulu öndər Heydər Əliyev ideyalarına əsaslanan quruculuq işləri aparılır. Əsrə bərabər işlər görülür. Bu gün quruculuq və inkişafın Naxçıvan modeli yaranıb. Muxtar respublikada o yer yoxdur ki, quruculuq işləri getməsin. Bütün bunlar Naxçıvanın, ümumilikdə isə Azərbaycanın inkişafına xidmət edir. Culfada bütün kəndlər kompleks abadlaşıb. Yaycıda həmişə içməli su problemi olub. Əvvəllər bu istiqamətdə müəyyən işlər görülüb. Bu gün isə sakinlərin rahatlığına xidmət edəcək mühüm bir layihənin təməli qoyulur".

Ali Məclisin Sədri demişdir: Su, həyatdır. Hər bir ev içməli su ilə təmin olunmalıdır. Ölkə üzrə qəbul olunmuş dövlət proqramlarında rayon və şəhərlərin su-kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulub. Kəndlərin su təminatının yaxşılaşdırılması üçünsə əlavə tədbirlər görülür. Bu layihə muxtar respublikanın daxili imkanları hesabına həyata keçiriləcək, insanların rahat yaşayışı tam təmin ediləcəkdir. Yaycı qədim tarixə malikdir. Bu kənddə də ermənilər tərəfindən soyqırımı həyata keçirilib, lakin sakinlər öz yurdlarını tərk etməyib, kənddə məskunlaşaraq buranı inkişaf etdirmişlər. Son illər Yaycıda quruculuq işləri aparılmış, torpaqların suvarılması üçün nasos stansiyaları qurulmuşdur. Bu gün kənddə yeni evlər tikilir, məskunlaşma ilbəil artır. Sakinlər də yaradılan bu imkanlardan səmərəli istifadə etməlidirlər.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev göstərilən diqqət və qayğıya görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri texniki-mühəndis qaydalarına əməl olunmaqla işlərə başlanılması və keyfiyyət amilinə diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Vətən müharibəsi qazilərinə medallar təqdim olunub



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində Vətən müharibəsi qazilərinə medallar təqdim olunub. Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi Anar Aqilov şəhid ailələrinə, qazilərimizə göstərilən diqqət və qayğıdan danışıb.

Naxçıvan Şəhər İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov isə bildirib ki, illərdən bəri dövlətimiz, xalqımız humanitar prinsiplərə söykənərək münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olub.

Vurğulanıb ki, 44 gün davam edən müharibədə öz gücünü tamamilə itirərək ordumuzun qarşısında diz çökməyə məcbur olan qondarma Ermənistan hökuməti 10 noyabr 2020-ci ildə müharibəyə son qoyulması, işğalçı dövlətin torpaqlarımızdan tamamilə çıxarılması üçün bəyanat imzalamağa məcbur oldu.

Lakin qələbəmiz itkisiz olmadı. Axı "Torpaq, uğrunda ölən varsa, Vətəndir!" – deyirik. Bu gün şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğı muxtar respublikamızda da yüksək səviyyədədir. Belə ki, şəhid ailələrinin mənzillərlə, qazilərimizin avtomobillərlə təmin edilməsi bu qayğının bariz nümunəsidir.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respubika Təşkilatı Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov və Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov da çıxış ediblər. Sonda 3 qazimizə "Şücaətə görə", 1 qazimizə isə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal təqdim olunub.

Qazilərimizdən Əyyub Sadıqov onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

✍ **Telli MƏMMƏDOVA**

# Obaları oymaq-oymaq

## (Batabat yaylağından reportaj)



### Yolboyu təəssüratlar

Gözəl yay səhərlərinin birində təbiət mənzərələri ilə dillər əzbəri olan Şahbuz rayonuna üz tuturuq. Havaların isti keçməsi və mənzilimizin uzaq olması səbəbilə səhərin erkən saatlarında yola çıxmışıq. Məqsədimiz mərcan gözlü Batabat yaylaqlarında qərar tutub burada oba quran insanlarla görüşməkdir. Yolboyu salınan yaşıllıqlar, yaşıllıqlara mütəmadi olaraq göstərilən qayğını və belə qayğının bəhrələrini gördükcə insan ana təbiətə daha çox bağlanır. Elə bu düşüncələrlə yolu, demək olar ki, yarı edib Şahbuz rayon mərkəzinə çatırıq. Muxtar respublikamızın dayanmadan inkişaf edən bütün bölgələri kimi, bu ünvandan da saatlarla danışmaq, səhifələrlə yazı hazırlamaq olar. Lakin "ovçu ovunda, yolçu yolunda gərək", – deyib rayon mərkəzində çox ləngimədən Batabat istiqamətinə üz tuturuq. Üzüyuxarı, kəndlərə doğru irəlilədikcə maşının pəncərəsindən içəri dolan hava insanı şəhərin isti ağuşundan alıb, sanki dörd fəslin eyni anda yaşandığı bir sərinliyə aparır. Budur, uzaqdan iyul ayının qızmar günlərində zirvəsində qar, ətrafında yaşıllıq olan dağlar görsənir. Elə bil dağ yamaclarına xalı sərilib. Ətəklərində arı yeşikləri görünür. Burada hasilə gələn balın keyfiyyətinə, ətrinə, dadına söz ola bilməz. Biçənək kəndindən keçib Batabata çatırıq. Bizi ilk "qarşılayansa" Şahbuz Dövlət Təbiət Qoruğu olur. Öyrənirik ki, bu qoruğun əsas torpaq sahələri 2200-2400 metr yüksəkliyə malik olan dağlıq sahələrdən, yağıntının qismən çox olduğu Batabat gölü və Biçənək aşırımı ərazilərində yerləşir. Onun su ehtiyatları isə, əsasən, atmosfer çöküntüləri hesabına formalaşan Batabat Su Anbarı eyniadlı üç göldən ibarətdir. Ümumi su tutumu, təqribən, 3 milyon kubmetrdir. Anbarın suyu, əsasən, Zorbulaq çayı və qismən atmosfer çöküntüləri hesabına formalaşır. Bu qoruqda müxtəlif torpaq tiplərinin inkişaf tapdığı ərazidə 2899 bitki növü yayılmışdır. Belə geniş müxtəlifliyə malik bitki örtüyü olan ərazidə 285 növ faunanın məskunlaşmasına imkan yaranmışdır. Qoruğun ərazisi sıldırım qayalıqlar, nival və allüvial relyef formaları ilə xarakterizə olunur. Ərazidə şabalıdı və torflu torpaq tiplərinin inkişaf tapması landşaft-bitki örtüyünün formalaşmasında böyük rol oynayır.

Qoruqdan ayrılıb yolumuza davam edirik. Çox keçməmiş yol kənarında piştaxta üzərinə düzülmüş arıçılıq məhsulları diqqətimizi çəkir.

### Bal kimi şirin söhbətdən başlanan yol

Maşını saxlayıb məhsullara baxırıq. Budur, arıçı Etibar Səfərov bizə yaxınlaşır.



Həmsöhbət oluruq. Deyir ki, ata-babasından miras qalan bu sənəti 74 yaşı haqlayan atası Təbriz Səfərovdan öyrənib.

Öyrənirik ki, 150-dək arı ailəsi olan təsərrüfatçı üç övlad atasıdır. Övladlarından biri ali məktəbi bitirərək ailə həyatı qurub, digəri isə hazırda Bakı şəhərində ali məktəbdə oxuyur. Balaca övladı məktəbli olan ata ailəsinin tələbatları ilə yanaşı, övladlarının təhsil haqlarını da elə bu sahədən götürdüyü qazancla ödədiyini bildirir. İlin, əsasən, may-sentyabr aylarında əldə etdiyi məhsulun alıcısı da elə başının üstündə olur. Bura istirahətə gələnlər arıçılıq məhsullarının dadına baxır və alıb aparırlar. Səliqə ilə düzülmüş balla dolu bankalara baxıram. Yadıma arıçılıqla bağlı eşitdiyim bir söz düşür və həmsöhbətimə sual verməkdən özümü saxlaya bilmirəm:

– Balın xarlanması nə deməkdir?

Üzünə təbəssüm qonur və bir neçə bankanı əli ilə göstərərək deyir:

– Əgər bal süzüldükdən bir müddət sonra bərkiyirsə, deməli, o, təmiz məhsuldur. Gördüyünüz bu bankalardakı bal ilin ilkin süzülmüş məhsuludur. Odur ki, onlar artıq xarlanıb...

Səmimi söhbət üçün minnətdarlıq edib ayrılırıq ondan. Hələ yolumuz uzundur. Çox keçmir ki, asfalt örtüklü hamar yoldan ayrılıb dağ yolu ilə davam edirik.

Yayı istirahət fəsli adlandırırlar. Amma bu fəsil gəlişi ilə hər sahəyə ayrı bir qayğı da gətirir. Məsələn, xanımlar evdə yorğan-döşəyi, xalça-palazı yuyur, təzələyir. Qış üçün hazırlıqların təməli də elə yay fəslində başlayır. Bu qayğılardan heyvandarlara da pay düşür. Belə ki, onlar da mal-qara üçün yem tədarük edirlər.



### Qışa yem tədarük edilir

Yolumuzun üzərində bir neçə yerdə ot biçini ilə məşğul olan heyvandarları görürük. Onlardan birinin yaxınlığında maşını saxlayıb: "İşiniz avand, məhsulunuz bol olsun", – deyib yaxınlaşırıq. Kənarda hazır qoyulmuş çantada termos və yemək diqqətimizi çəkir. Bəlli olur ki, onlar hələ hava qaralana qədər burada işləyəcəklər. Öyrənirik ki, ixtisasca fizika müəllimi olan Hümbət Hüseynov Biçənək kəndində yaşayır, bu yaylaqlarda 2 hektara yaxın ərazidə ot sahəsi var. Hümbət müəllim deyir ki, uzun illər heyvandarlıqla məşğul olub. Yaxşı qazanc əldə edib. Şahbuzda, xüsusən də bu ərazidə saxlanılan heyvanın əti, südü özünə xeyli alıcı qüvvəsi toplayıb. Çünki yaylağın ərazisi gül-çiçəklə doludur. Təmiz hava, təmiz su da keyfiyyətli ət və süd məhsulları üçün başlıca amillərdir.

Deyir ki, yaşı ilə əlaqədar özü heyvandarlıqla daha o qədər də məşğul ola bilmir. Amma əldə etdiyi saman kiplərini heyvandarlara münasib qiymətə satır. Özü də bununla ailəsinin maddi təminatını ödəmiş olur. "Ruziniz daha da artıq olsun", – deyib Hümbət müəllimdən də ayrılırıq. Xəyalım orta məktəbdə oxuduğum illərə gedir. Atama ot çalımında yaxından köməklik edərdik. O vaxt indiki texnikalar çox az idi. İndi, şükür Allaha, az qala hər evdə otbiçən texnika var...

Xeyli məsafə qət etmiş, yolumuzun, demək olar ki, yarıdan çoxunu başa vurmuşuq. Yolboyu bir az susadığımızı hiss edən, bu yerlərə yaxşı bələd olan sürücümüz yolumuzun üstündə yerləşən və "Turşsu" adlanan bir bulaq haqqında danışır. "Batabata gəlib həmin bulağın suyundan içmədən keçmək olmaz", – deyən sürücü yaxınlıqda maşının əyləcini çəkir. Yolun kənarında yerləşən bulaqdan qaynayaraq çıxan bumbuz suya əl vurmağın mümkünsüz olduğunu görürük. Qazı isə içməyə aman verməyən bu su bizi özünə valeh edir. Bu yerdən ayrılmaq istəməsək də hələ görüləcək çox işimiz olduğuna görə yolumuza davam edirik.

### Budur, obalar görünür

Gördüyümüz ilk obada maşını saxlayıb yerə enirik. Gəlişimizi görən obanın balaca sakinləri maşınımızı əhatəyə alırlar. Çəmənlikdə top oynamağın sevincindən doymayan balacalara: – Harada yaşamaq daha gözəldir, burada, ya evinizdə? – deyə sual ünvanlayırıq. – Əlbəttə də ki, burada! – deyən balacanın qətiyyətli cavabından onun yay aylarında, xüsusilə də ölkə ərazisində pandemiyanın hökm sürdüyü, yaxınlarının yaşadığı



digər bölgələrə gediş-gəlişin məhdudlaşdığı bir vaxtda öz istirahətindən məmnunluğu duyulur. Balacalarla söhbətdən sonra oba sahiblərinə yaxınlaşırıq. Öyrənirik ki, onlar buraya Kəngərli rayonunun Çalxanqala kəndindən gələn Fazil və Əli Bayramov qardaşlarıdır. 2000 baş heyvanla yaylağa yerləşən bu ailələr avqust ayının sonlarına qədər burada yaşayacaqlar. Süd və süd məhsullarının istehsalı ilə məşğul olan evin xanımları dağlardan qantəpər, çobanyastığı, kəklikotu toplamaqla qış tədarükü də görürlər. Bu oba yerindən də ayrılıb, üz tuturuq digər obalara. Qarşımıza çıxan digər hər bir oba sakini ilə tanış oluruq. Babək rayonunun Nəzərabad kəndindən Mirnəsib Seyidov, Gülşənabad kəndindən isə Orxan və Hüseyn Nadirov qardaşları da yurdumuzun bu dilbər guşəsində oba qurub, heyvandarlıqla məşğul olurlar. Diqqətimizi çəkən digər oba isə Şərur rayonunun Muğancıq-Mehrab kəndindən gəlmiş İlham Quliyev və Allahverdi İsmayılovun obasıdır. Allahverdi obaya 900 baş yerli, 500 baş isə Türkiyə sortu olan heyvan gətirib bu il. Deyir ki, bu yaylağa hələ uşaq ikən öz valideynlərimlə gələrdim. İndi isə öz övladlarım, nəvə-nəticələrimlə bu yurdun sakininə çevrilmişəm. Batabatın təbiəti, zəngin bitki örtüyü heyvandarlıq üçün çox əlverişlidir. Gördüyünüz bu yaylaq hər zaman yel əsməsi ilə seçildiyinə görə el arasında "Yellicə yaylağı" adlanır. Təbiətin səfasından xeyli söhbət açan Allahverdi kişi onlara göstərilən diqqət və qayğıdan danışmağı da unutmur. Deyir ki, nə qədər əlçatmaz, ünyetməz ərazidə yurd salsaq da, dövlətimizi var olsun, hər zaman biz oba sakinləri ilə yaxından maraqlanır. Mütəmadi olaraq rayon Baytarlıq İdarəsinin, Gigiyena və Epidemiologiya Mərkəzinin, Mərkəzi Xəstəxananın nümayəndələri bizimlə söhbətlər aparır, çadırlarımızı, örüşlərimizi dərmanlayır, lazım olan dərman preparatları ilə təmin edirlər. Dağların qoynunda qərar tutub yaşadığımıza görə bazar-dükana əlimiz çatmır. Sağ



olsunlar aid təşkilatları, mağazaları maşınlarla ayağımıza qədər gətirirlər. İstədiyimiz məhsulu elə qapımızdaca ala bilirik.

Yaylaqda yaşadığımız müddətdə istehsaldan da ayrı qalmırıq. Belə ki, hazırladığımız süd, qatıq, şor, kərə, pendir kimi faydalı ağartı məhsullarını elə buradaca satırıq. Elə insanlar var ki, sırf bu məhsulları almaq üçün yaylaqlara qalxırlar. Bəzən də biz özümüz istehsal etdiyimiz məhsulları satış üçün yarmarkalara göndəririk. Şahbuzun dağları zəngin bitki örtüyünə malikdir. Elə gördüyünüz bu dağdan kəklikotu, səhləb, qantəpər, ələyəz, əvəlik və başqa otlardan da yığırıq. Yığdığımız otlardan muxtar respublikadan kənarda yaşayan qohumlarımıza pay göndəririk.

Bu zəhmətkeş ailə ilə söhbət maraqlı olsa da, artıq Günəşin dağların arxasında gizlənməyə başladığının fərqinə varırıq. "Getmək vaxtıdır", – deyib sağollaşırıq.

### Fərhad evi...

Bir qədər sonra sürücünün səsi məni xəyallardan ayırır:

– Fərhad evinə baxmaq istəyirsinizmi?

Bu imkanı əldən qaçırmaq olarmı? İnsan əli ilə hələ elmin, texnikanın inkişaf etmədiyi bir dövrdə tikilmiş (əgər ona tikilmiş demək olarsa) Fərhad evi xəyallarımızı uzaqlara aparır... Evdən çıxırıq. Sağda gördüyümüz bir mənzərə diqqətimizi çəkir. Dağın ətəyində nəsə toplayan insanları görürük. Onlara yaxınlaşmaq məqsədilə sürücüdən maşını saxlamasını xahiş edirik. Adını sonradan öyrəndiyimiz Niyazi Qasımov onlara yaxınlaşdığımızı görüb bizə tərəf gəlir. Salamlaşıb öyrənirik ki, bu zəhmətkeş insan, sən demə, Naxçıvan şəhərində yaşayır. Boş vaxtlarını xanımı Məhəbbət Qasımova ilə birlikdə bu dağlardan dərman bitkisi toplamaqla keçirir. Məhəbbət xanım əlindəki bitkiləri bizə göstərərək deyir ki, bu, gülxətmidir. El arasında öskürəyin dərmanı kimi tanınan bu bitkini, əsasən, dağlıq zonalardan yığmaq olur. Bu, qantəpər, bu isə solmazçiçəkdir. Bunların hər birinin ayrı-ayrılıqda faydası olsa da, istifadə etməzdən əvvəl mütləq həkimlə məsləhətləşmək lazımdır. Bir də ki, gərək, toplayanda da diqqətli olasan. Çünki hər bir bitkinin oxşarı da var ki, onlar zəhərli də ola bilir. Bitkiləri toplamağa gələnlərə isə məsləhət vermək istəyərdim ki, onları toplamaq qaydalarına diqqət etsinlər. Məsələn, gülxətminin çiçəklərinin toplanması lazım olduğu halda, tənbəllik edib, onu kökündən çıxardıqda çox keçməz ki, bu cür min bir dərdin dərmanı olan təbiət nümunələrimizin kökü kəsilər.

*Bəli, dəyərli oxucularımız, bu maraqlı ailə ilə həmsöhbət olub, onların özləri ilə gətirdikləri kəklikotulu çaydan da içərək yolumuza davam edirik. Təəssüratlarımız zəngindir. Oxucularımıza da həmin təəssüratları yaşamaq üçün Batabat yaylağına getmələrini məsləhət görürük...*

**✍ Muxtar MƏMMƏDOV**
**✍ Telli MƏMMƏDOVA**

## Yeni bina inşa olunur



*Kəngərli rayonunda Baytarlıq İdarəsi üçün yeni bina tikilir. İnzibati binanın inşası Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilir.*

Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olan binanın zirzəmi qatında arxiv, iş otaqları, süni mayalanma avadanlıqlarının, dərmanların saxlanc otaqları, yeməkxana və qazanxana yerləşəcək. Birinci mərtəbədə iş otaqları, laboratoriya, patoloji materialların qəbulu otağı, bakteriologiya və serologiya şöbələri, ikinci mərtəbədə isə iş otaqları, baytar həkim və sahə baytar məntəqəsi üçün otaqlar olacaq.

İnşaat işlərində keyfiyyət amilinə ciddi önəm verilir, əsasən, yerli materiallardan istifadə olunur, texniki təhlükəsizlik diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**

## "Yay məktəbi"ndə tələbələr üçün STEAM dərsləri keçilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Gənclər Fondunun təşkilatçılığı ilə hər il iyul-avqust



ayları tələbə və şagirdlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə "STEAM yay məktəbi"nin keçirilməsi nəzərdə tutulmuşdur. İlk olaraq Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin 60 şagirdi üçün 6-9 və 13-16 iyul 2021-ci il tarixlərdə "STEAM yay məktəbi" təşkil edilmişdir. Bu istiqamətdə görülən işlərin davamı olaraq avqust ayının 3-dən tələbələr üçün təşkil edilən "Yay məktəbi"nin də proqramına STEAM təhsili üzrə mövzular daxil edilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin təşkilatçılığı ilə keçirilən "Yay məktəbi"ndə iştirak edən 46 tələbəyə Təhsil Nazirliyinin STEAM üzrə təlimçiləri tərəfindən proqrama uyğun layihə əsaslı dərslər keçilmişdir.

Dərslərdə tələbələrə STEAM metodologiyaları, arduino və proqramlaşdırma modulu, mikrobit platforması, 3D modelləşdirmə, 3D çap, lego modellərindən robotların hazırlanması və mühəndislik dizayn həlləri və digər bu kimi istiqamətlərdə praktik biliklər verilmişdir. Dərs zamanı təlimçi-müəllim Rəhman Səfərov STEAM layihələrinin tətbiqində əsas komponentlərdən olan arduino mikrokontrol platformasından istifadə barədə məlumat verib.

Təlimçi-müəllim daha sonra praktik olaraq tələbələrə arduino layihə dəstində analoq və rəqəmsal pinlərdən, əlaqəli sensor vasitələrindən istifadə edərək alqoritmlər quraraq müxtəlif robotlar, elektron sistemlər, avtomatlaşdırma və ağıllı sistemlər, uzaqdan idarə olunan nəqliyyat vasitələri, geyilə bilən texnologiya layihələri və digər layihələrin arduino ilə tətbiq edilə biləcəyini göstərib.

Sonda tələbələr arduino ilə hazırladıqları layihəni təqdim ediblər. "Yay məktəbi"ndə növbəti STEAM dərsləri avqustun 10-u, 17-si, 24-ü davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Ədəbiyyatşünaslığımızın əbədi mövzusu: mollanəsrəddinşünaslıq

*Əsr yarıma yaxın tarixi olan Azərbaycan milli mətbuatının keçdiyi yol haqqında düşünərkən bir neçə məqamı, xüsusilə xatırlamalı olursan: bu dövrdə xalqımızın maariflənditrilməsi yolunda fədakarlıq göstərən neçə-neçə mətbuat orqanı meydana gəlib; dəyərli ziyalılar yetişib. Həmin mətbuat orqanlarının, həm də o qəzet və jurnallarda çalışanların fəaliyyəti sonrakı dövrlərdə geniş tədqiqat mövzusuna çevrilib, yüzlərlə məqalə, monoqrafiya işıq üzü görüb, dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilib. Yeri gəlmişkən qeyd edək ki, bu ənənə dövrümüzdə də davam etdirilir. Doğma "Şərq qapısı"nın 100 illik yubileyinin keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı da bunun ifadəsidir. Yubiley ərəfəsində elimə keçən "Molla Nəsrəddin" ensiklopediyası" da mətbuatımızda öz dəstxəti olan möhtəşəm bir mətbuat nümunəsinə – "Molla Nəsrəddin" jurnalına böyük diqqətin və qayğının ifadəsi kimi təqdirolunası bir nəşrdir.*

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində AMEA-nın birinci vitse-prezidenti, həmin institutun direktoru, akademik İsa Həbibbəylinin baş redaktorluğu, filologiya elmləri doktoru, professor Vüqar Əhmədin tərtibçiliyi ilə geniş elmi ictimaiyyətə, mirzəcəlilsevərlərə təqdim olunmuş "Molla Nəsrəddin" ensiklopediyası" indiyədək bu istiqamətdə aparılmış tədqiqatları daha da zənginləşdirib. "Elm" nəşriyyatında işıq üzü görən yeni nəşr ilk baxışdan poliqrafik dəyəri ilə diqqəti cəlb edir; kitabı vərəqlədikcə onun elmi dəyərinin də çox yüksək olmasını görürük. Ensiklopediya Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalının yorulmaz tədqiqatçısı, çox doğru olaraq bu dahi yazıçının yaradıcılığını ədəbiyyatımızın ən böyük Azərbaycannaməsi, "Molla Nəsrəddin"i Mirzə Cəlilin şah əsəri kimi dəyərləndirən akademik İsa Həbibbəylinin yazdığı "Molla Nəsrəddin" ədəbi məktəbinin ensiklopediyası" adlı ön sözlə açılır. Tam cəsarətlə demək olar ki, ön söz həm də ayrıca bir tədqiqat əsəri səviyyəsindədir.

"Mollanəsrəddinçilik ictimai satira vasitəsilə xalqın milli-mənəvi özünüdərkinə nail olmaq, cəmiyyəti dəyişdirməyə və yeniləşdirməyə xidmət etməkdir". İsa Həbibbəylinin bu qənaətinə "Molla Nəsrəddin"in bütün nömrələrində rast gəlmək mümkündür və bəhs etdiyimiz nəşrdə işıq üzü görmüş bütün yazılar həmin qənaəti təsdiq edir.

"Görkəmli dövlət xadimi Heydər Əliyev "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər haqqında" (İ.Həbibbəyli, G.Babayeva) adlı yazı isə ön sözdə aldığımız məlumatları daha da zənginləşdirir. Ulu öndərin bəhs olunan yazıçı və jurnala böyük ehtiramının ifadəsinə diqqət edin: ***"Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o bizim müasirimizdir, o bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır".***

Ensiklopediyanı vərəqləyərkən böyük zəhmət çəkilməsini görməmək mümkün deyil: "Molla Nəsrəddin" jurnalı və Cəlil Məmmədquluzadə ilə bağlı müxtəlif mətbuat orqanlarında yazıları dərc olunmuş tədqiqatçılar, ziyalılar, jurnalistlər barədə ayrı-ayrı müəlliflərin qələmə aldıqları bioqrafik xarakterli yazılar, həmçinin jurnalın fəaliyyəti dövrü yerləşdiyi ünvanlar, jurnalın redaktorları, işıq üzü gördüyü nömrələrin sayı barədə məlumat verilir. Öyrənirik ki, 1906-1917-ci illərdə Tiflisdə jurnalın 370, 1921-ci ildə Təbrizdə 8, 1922-1931-ci illərdə Bakıda 363 sayı işıq üzü görüb. 1945-ci ildən başlayaraq 24 doktorluq, 1938-ci ildən 78 namizədlik dissertasiyaları müdafiə olunub. Jurnal və Mirzə Cəlil haqqında 1917-ci ildən 160 kitab nəşr edilib. Cəlil Məmmədquluzadə tərəfindən 1921-ci ildə tərtib olunmuş Təbriz şəhəri üzrə abunə dəftəri, jurnalda gedən gizli imzalar, hikmətli sözlər də ensiklopediyada özünə yer alıb. "Molla Nəsrəddin" jurnalının tədqiqi, tarixi ilə bağlı yazı da maraqlı faktları ilə diqqəti çəkir.

İsa Həbibbəylinin, Vüqar Əhmədin, Asif Rüstəmlinin, Gülbəniz Babayevanın, Teymur Kərimlinin, Aynurə Paşayevanın və başqalarının "Molla Nəsrəddin" jurnalında çalışmış və ya jurnalla sıx əlaqə saxlamış kənar müəlliflər, onların yazıları və həmin müəlliflər barədəki məlumatlar mollanəsrəddinşünaslığın daha geniş elmi aspektdə təqdimi üçün qiymətli mənbə rolunu oynayır. Bütün yazılarda bir neçə məqam özünü göstərir: Jurnal qarşısına qoyduğu məqsədə çatmaqda mübariz olub, xalqın üz-



ləşdiyi çətinliklərin səbəblərini ortaya qoymaqla, bu çətinliklərdən qurtarmağın yollarını göstərib. Mövhumatın, xürafatın ölkəni günü-gündən geri salmasını tənqid atəşinə tutub. Buna qarşı isə hər an təhdidlərlə, qərəzli münasibətlərlə üzləşib, ancaq amalına xilaf çıxmayıb, bununla da zamanında böyük təsir gücünə malik mətbu orqanı kimi tanınıb və dəyərini bu gün də saxlayıb. Ensiklopediyada yer almış müəlliflər haqqındakı hər bir yazının sonunda ədəbiyyat siyahısının verilməsi bugünkü oxucunun həmin siyahıdan mənbə kimi istifadə etməsinə imkan verib.

Məlumdur ki, jurnal öz səhifələrində qeyri-millətlərdən olan ziyalılarla da ya sıx əlaqə saxlayır, ya da onlar haqqında yazılara yer verirdi. Bu baxımdan Aleksey Osipoviç Çernyayevski, Sokrat, Telinqater Benedikt, Lev Nikolayeviç Tolstoy, jurnalın rəssamları İosif Rotter, Konstantin Dorş, Oskar Şmerlinq, o dövrün müxtəlif təmayüllü mətbuat orqanları barədəki məlumatlar öz elmi tutumu ilə diqqəti çəkir.

Belə bir sanballı ədəbi dəyərə malik olan ensiklopediya haqqında kiçik bir qəzet yazısında geniş danışmaq mümkünsüz olduğu üçün Cəlil Məmmədquluzadə yaradıcılığı və "Molla Nəsrəddin" jurnalı ilə bağlı tədqiqatlar aparmış naxçıvanlılar haqqında bir neçə kəlmə deməyi məqsədəuyğun sayırıq. Akademik İsa Həbibbəylinin Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, mətbuatşünas alim Asif Rüstəmlinin professor, Əməkdar elm xadimi Abbas Zamanov, Məmmədəli Sidqi, professor Firudin Hüseynov, Gülbəniz Babayevanın vaxtilə "Şərq qapısı" qəzetinin baş redaktorunun müavini işləmiş professor Allahverdi Məmmədlinin Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərli, Məhəmmədtağı Sidqi, Elçin Mehrəliyevin arxeoqraf, publisist Ataxan Paşayev, Vüqar Əhmədin akademik İsa Həbibbəyli, Ayaz Vəfalının Əli Səbri, Hüseyn Cavid, Rauf Sadıxovun Əli Sultanlı və Əliqulu Qəmküsar, Qurbanəli Şərifov, İslam Qəriblinin Əziz Şərif, Gülnar Qasımlının Hacıağa Ordubadi (Fəqir), Təhminə Vəliyevanın professor Fərrux Ramazanov, Teymur Kərimlinin Məmməd Səid Ordubadi və başqaları haqqındakı yazılarda vaxtilə jurnalda çıxış etmiş ziyalıların həyat və fəaliyyətinə müxtəlif yöndən işıq salınıb.

Bu gün Naxçıvanda yaşayıb-yaradan və "Molla Nəsrəddin", Cəlil Məmmədquluzadə haqqında tədqiqatlar aparmış filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov və dosent İman Cəfərli, pedaqoji elmlər doktoru Kamal Camalov, dosent Aygün Orucova və tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova, filologiya üzrə fəlsəfə doktorları Əbülfəz Əzimli, Ramiz Qasımov haqqında qələmə alınmış yazılar da diqqəti çəkir.

Qeyd edək ki, bəhs edilən Naxçıvan ziyalılarının jurnalla bağlı bəzi yazıları "Şərq qapısı" qəzetində işıq üzü görüb. Kitab və monoqrafiya şəklində nəşr olunaraq geniş oxucu kütləsinə çatdırılıb. Ümumiyyətlə isə "Molla Nəsrəddin"lə əlaqədar qələmə alınmış bu yazılar Naxçıvanda elmi, mədəni mühiti təmsil edən ziyalıların adıçəkilən nəşrin ideya istiqamətini öyrənmək sahəsindəki fəaliyyətlərini düzgün qiymətləndirmək baxımından təqdirolunasıdır. Bu da onu göstərir ki, Naxçıvan bütün dövrlərdə bir mədəniyyət mərkəzi funksiyasını yerinə yetirib. Və sonradan "Molla Nəsrəddin"i müxtəlif yönlərdən tədqiq edən naxçıvanlılar öz sələflərini dəyərləndirməyi ziyalılıq vəzifəsi hesab ediblər.

Qürurvericidir ki, bu il 100 yaşını qeyd etdiyimiz doğma "Şərq qapısı" qəzeti haqqında da ensiklopediyada geniş məlumat verilib. Vəfa Babasoyun "Şərq qapısı" adlı yazısında oxuyuruq: "Şərq qapısı" qəzeti nəşri müddətində Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni mühitinə güzgü tutmuş, fəaliyyətində mətbuatın köklərinə, ədəbi qaynaqlarına müraciət etməkdən çəkinməmişdir. Qəzet "Molla Nəsrəddin"in sözü ilə" adlanan rubrikasında cəmiyyətdəki nöqsanları öz səhifələrində işıqlandırmaqdan çəkinməmiş, tənqidi yazıların çapına şərait yaratmışdır".

Çox doğru olan bir qənaətdir. "Şərq qapısı" "Molla Nəsrəddin" ənənələrini öz fəaliyyətində davam etdirməyi vacib sayan bir mətbuat orqanı kimi ötən yüz ildə rastlaşılan neqativ hallara, inkişafımıza mane olan əngəllərə qarşı barışmaz mövqedə dayanıb. Həmin yazıda da deyildiyi kimi: "Şərq qapısı" qəzetindəki satira xətti "Molla Nəsrəddin" jurnalının mövqeyinin əks-sədasıdır".

Adıçəkilən yazıdan: "Şərq qapısı" qəzeti mətbuat tariximizlə bağlı maraqlı yazılar dərc etmişdir. "Molla Nəsrəddin" jurnalının nəşri tarixinə işıq salan bir neçə məqalə bu baxımdan, xüsusilə əhəmiyyətlidir. İbrahim Mollayevin müəllifi olduğu "Molla Nəsrəddin"in naxçıvanlı müxbirləri" ("Şərq qapısı" qəzeti, 30 iyul 1965-ci il), M.Yusifov tərəfindən qələmə alınan "Molla Nəsrəddin" jurnalı Naxçıvan haqqında" ("Şərq qapısı" qəzeti, 21 aprel 1976-cı il) diqqəti cəlb edir. Bu siyahını bir qədər də artırmaq olar.

Mollanəsrəddinşünaslığa böyük töhfə olan ensiklopediya məhz bu əhəmiyyətlərinə görə bütün mirzəcəlilsevərlərin stolüstü kitabına çevrilib.

**Muxtar MƏMMƏDOV**

## Polis veteranları fəaliyyətlərini davam etdirirlər

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurası cari ilin ilk altı ayında da fəaliyyətini uğurla davam etdirib. Şura üzvləri ictimai təhlükəsizliyin təmin edilməsinə, cinayətlərin profilaktikası və açılmasına, əhali arasında hüquqi maarifləndirmə tədbirlərinə və digər işlərə cəlb edilərək bütün istiqamətlər üzrə daxili işlər orqanlarına lazımi köməkliklər göstəriblər.*

İlk olaraq onu qeyd edək ki, təqaüddə olan sabiq polis əməkdaşları əhalidə qanunsuz saxlanılan 9 silahın və 1000-dən artıq müxtəlif çaplı patronun könüllü olaraq polis orqanlarına təhvil verilməsində fəallıq göstərib, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində əməkdaşlara göstərilən köməklik sayəsində 5 nəfər sürücülük hüququ olmayan və 3 nəfər sərxoş sürücü aşkar edilib.

Muxtar respublikada axtarış istiqamətində həyata keçirilən tədbirlərə köməklik çərçivəsində mülki hüquqi öhdəliklərdən yayınan 25 və Babək Rayon Polis Şöbəsi üzrə təqsirləndirilən şəxs kimi axtarışda olan 1 nəfərin yeri müəyyən olunub.

Müasir tələblərə cavab verən kadr potensialının formalaşdırılması istiqamətində həyata keçirilən hamilik işinin əhəmiyyəti, şəxsi heyət arasında mənəvi-psixoloji durumun daha da möhkəmləndirilməsi zərurəti nəzərə alınaraq veteranlarımızın təcrübəsindən bu sahədə, xüsusilə geniş istifadə edilməkdədir. Veteranlar dəfələrlə nazirliyin Orta İxtisas Polis Məktəbində olub, daxili işlər orqanlarında xidmət keçmənin xüsusiyyətləri və əsasları haqqında söhbətlər aparıblar.

İnzibati hüquq pozuntularına qarşı həyata keçirilən tədbirlərə yaxından iştirak edən veteranlar tərəfindən hesabat dövründə müxtəlifxarakterli 48 inzibati xəta faktı aşkar olunaraq müvafiq tədbirlər görülüb. Həm münaqişəli ailələr, həm də münaqişəli qonşularla bağlı həyata keçirilən profilaktik tədbirlər çərçivəsində problemlərin həllində polis veteranlarının ictimaiyyətdə olan nüfuzundan geniş istifadə edilib, həmin ailələrlə veteranların bir neçə dəfə görüşü keçirilib. Azyaşlıların əməyindən istifadə olunması hallarının aşkarlanması məqsədilə təşkil edilən reyd yoxlamalarında, ailə təsərrüfatlarının yaradılması və əhəmiyyəti mövzusunda aparılan maarifləndirmə tədbirlərində də polis veteranları fəallıq göstəriblər.

Muxtar respublikada həyata keçirilən yaşıllaşdırma tədbirlərinin mahiyyətinin əhali arasında izah olunması istiqamətində aparılan 50-dən çox maarifləndirici-profilaktik tədbirdə iştirak edən veteranlar tərəfindən yaz iməcilikləri ndə 1452, o cümlədən 2019-2021-ci illər ərzində 3420-dən artıq ağac əkilib. 2021-ci ilin payız mövsümündə də bu tədbir davam etdiriləcəkdir.

27 sentyabr 2020-ci il tarixdə erməni silahlı qüvvələrinin cəbhədə törətdikləri növbəti təxribata cavab olaraq torpaqlarımızın azad olunması məqsədilə şanlı Azərbaycan Ordusunun bütün cəbhəboyu əks-hücuma keçdiyi ilk gündən polis veteranları bu tarixi hadisəyə öz vətənpərvər münasibətini bildirmiş və bu gün də gənclər arasında vətənpərvərlik ruhunun gücləndirilməsi sahəsində maarifləndirici təbliğatı davam etdirirlər.

Polis veteranları bundan sonra da muxtar respublikamızda əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında polis orqanlarına yaxından köməklik göstərəcəklər.

**Yusif HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki***

## Televiziya və radiolar yaradıcılıq səviyyələrini yüksəldirlər

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası iyul ayında muxtar respublikanın teleradiolarının fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır.

İyul ayında Naxçıvan Televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərlə bağlı 8 telematerial hazırlanmış, televiziyanın öz teləməhsulları, Sənədli filmlər və dublyaj redaksiyasının dublyaj etdiyi materialların həcmi efirin 72 faizini təşkil etmişdir.

Televiziyada Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və publik hüquqi şəxslərin mətbuat xidmətləri və ya əməkdaşlarının iştirakı ilə 31 veriliş və 222 xəbər süjeti efirə yayımlanmışdır.

Xüsusilə vətənpərvərlik istiqaməti ilə seçilən, əvvəlki dövrlərdə televiziyanın uğurlu layihələrindən olan, lakin bir neçə aydır ki, efirə təqdim edilməyən "Vətənimə xidmət edirəm" proqramının iyul ayında yenidən yayımlanması təqdirəlayiq haldır.

Şura tərəfindən 2021-ci ilin iyul ayında Naxçıvan Radiosunun efiri mütəmadi olaraq izlənilmiş, radionun proqram siyasəti və şəbəkəsi nəzarətdə saxlanılmışdır. Radio ay ərzində 487 saat efirdə olmuşdur. Həmçinin "Kanal 35" Televiziyasının yayım siyasəti nəzarətdə saxlanılmış, təbii profilli verilişlərin monitorinqi aparılmışdır. "Kanal 35" Televiziyası öz fəaliyyətini həftəlik proqram əsasında qurmuşdur. Televiziyanın efirində tədrisyönümlü telematerialların hazırlanmasında məhsuldarlıq və keyfiyyət qənaətbəxş olmuşdur.

Televiziyada iyul ayı ərzində təhsil, sosial, maarifləndirici proqramlar, ədəbi-bədii mövzulara həsr olunmuş rəngarəng verilişlər, sənədli televiziya filmləri hazırlanaraq efirə təqdim edilmişdir. Muxtar respublikada təhsil sahəsində keçirilən tədbir, müsabiqə və yarışların videoçəkilişləri aparılaraq "Təhsildə bu gün" adı altında qısametrajlı videolar hazırlanaraq televiziyada yayımlanmışdır.

İyul ayında televiziyanın efirində məktəblilərin bilik və bacarığının artırılması məqsədilə yayımlanan telemateriallar efirin 37,6 faizini təşkil etmiş, muxtar respublikamıza həsr olunmuş 32 film televiziyada yayımlanmış maarifləndirici və məlumatlandırıcı 293 videomaterial efirə təqdim olunmuşdur.

Bəhs olunan dövrdə "Naxçıvanın səsi" radiosunun da efiri izlənilmiş, təqdim edilən konsert proqramları və canlı verilişlərin təhlili aparılmışdır. Ay ərzində "Naxçıvanın səsi" radiosu 462 saat efirdə olmuşdur və efir müddətinin 76 saatını canlı yayım proqramları təşkil etmişdir.

Şura iyul ayında Naxçıvan Dövlət Universiteti televiziyasının yayım fəaliyyətinə nəzarəti davam etdirmiş, televiziyanın monitorinqini aparmışdır. Ay ərzində yenə də təkrar telemateriallar, zəif yaradıcı iş, texniki çatışmazlıq və Naxçıvan Televiziyasının verilişlərinin təkrarının yayımlanması müşahidə edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Seçim doğru olarsa ...

*– Ay qonşu, evdə uşaqlardan eşitdim ki, nəticələr açıqlanıb, dedim öyrənim görüm oğlan imtahandan keçə bildimi?*

*– Diqqətin üçün sağ ol, qonşu, şükür, birinci imtahandan babat yazıb, görək ikincidə necə olacaq?*

*– Yaxşı olar, əsas odur ki, keçid balını üstələyib qəbul olsun, ixtisasın elə bir önəmi yoxdur.*

*– Hə, orası elədir, evdə atası da, mən də deyirəm ki, əsas diplomun olsun, ali təhsil aldınsa, bütün qapılar üzünə açıqdır...*

İl ərzində, xüsusilə qəbul imtahanları dövründə valideynlərin dilindən tez-tez övladlarının gələcəyinə yönəlmiş, onların təhsili ilə bağlı belə söz-söhbətləri eşidirik. Təbii ki, hər bir ata və ana istəyir ki, övladı yaxşı təhsil alıb, gələcəyin savadlı kadrı kimi yetişərək həm özünə, həm də cəmiyyətə fayda versin. Ancaq bu həyativacib məsələdə incə bir detal var ki, bəzi valideynlər çox vaxt onu nəzərə almaq istəmir: övladının fikrini. Beləcə, fikirayrılığı ilə ailədə yaranan narazılıqlar çox vaxt ata və ananın istəyinə uyğun həll olunsa da, övlad tərəfindən bu hal heç də birmənalı qarşılanmır. Psixoloji cəhətdən xəsarət alan uşaqda özünə inamsızlıq, ətrafındakı hadisələrə etinasızlıq kimi mənfi xüsusiyyətlər formalaşır, nəticəsi isə əvvəl-axır üzə çıxaraq həyatına əsaslı təsir göstərir. Belə ki, valideynin istəyi ilə könülsüz şəkildə hazırlaşan uşaq ya imtahandan kəsilir, ya da nisbi bal toplamaqla ali təhsil müəssisəsinin hər hansı bir ixtisasına qəbul edilir. Öz seçimi olmadığı üçün təhsil aldığı müddətdə ixtisasına dərindən yiyələnmək ona maraqlı gəlmir. Beləliklə də, yalnız diplom xətrinə qazanılmış ixtisas üzrə gələcəkdə yaxşı çalışa bilməyib, çətinliklərlə üz-üzə qalır. Əgər nəzər etsək, bir deyil, beş deyil, onlarla belə nümunələr görərik. Halbuki o diplomu almaqdan ötrü ömrünün enerji dolu gənclik çağını, 4-5 ili hədər yerə itirməkdənsə, sevdiyi peşəyə yiyələnib özü üçün gözəl gələcək qura bilərdi. Paradoksal hal orasındadır ki, bəzi valideynlərin fikrincə, övladın biri ali məktəbə qəbul olubsa, digərləri də o istiqaməti tutmalıdır. Ancaq dərindən düşünsələr, görərlər ki, bir əldəki beş barmağın beşi də bir olmadığı kimi, ailədəki övladların hamısı eyni düşüncə tərzində, maraq dairəsində, qavrama qabiliyyətində deyillər. Elə uşaq var ki, fənləri dərindən qavraya bilmir, amma peşəni, sənəti daha yaxşı öyrənir. Yəni universitetə hazırlaşmaqdansa, hansısa bir peşə sahəsini öyrənmək onun üçün daha məqsədəuyğundur. Diqqət yetirsək, görərik ki, ətrafımızda ali təhsili olmadan bir peşəyə, sənətə yiyələnməklə sağlam təməllər üzərində gələcək quran, uğurları ilə həm özünə, həm də cəmiyyətə fayda verən insanlar kifayət qədərdir. Fərq etmir, bu peşə aşbazlıq, yaxud da zərgərlikdir, əsas odur ki, qarşısına qoyduğu məqsədin arxasınca gedərək məşğul olmaq istədiyi sahəni dərindən öyrənir. Bilir ki, seçdiyi peşə üzrə həvəsi, marağı, qabiliyyəti var və zaman keçdikcə özünü həmin sahə üzrə təkmilləşdirərək bəhrəsini görəcək. Böyük şairimiz Nizami Gəncəvi demişkən: “Bir elmi öyrənmək istədikdə sən, çalış ki, hər şeyi kamil biləsən. Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan...”

Bir peşəyə, sənətə yiyələnmək üçün istək, maraq, qabiliyyət nə qədər önəmlidirsə, bunun üçün lazımi şəraitin, bacarıqlı, bilikli, ixtisaslı müəllimin olması da son dərəcə vacib faktordur. Bu mənada, muxtar respublikamızda uşaq, yeniyetmə və gənclərin öz qabiliyyət və bacarıqlarına, istəklərinə uyğun peşəyə, sənətə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Önəmli məsələlərdən biri də bu işə yaş kriteriyası da nəzərə alınaraq kompleks şəkildə yanaşmanın olmasıdır. Belə ki, şagirdin əvvəlcə oxuduğu tam orta məktəbdə müəllimləri tərəfindən istedadı üzə çıxarılaraq istəyinə, qabiliyyətinə uyğun bilik və bacarıq aşılayan məktəbdənkənar müəssisələrə yönəldilir ki, burada o, yaradılan gözəl şərait hesabına istənilən peşənin, sənətin ilkin vərdişlərini, xarakterik xüsusiyyətlərini nəzəri və praktik şəkildə öyrənir. Sonrakı mərhələdə bu proses ixtisaslı müəssisələrdə davam etdirilir. Bunun üçün hazırda muxtar respublikada Naxçıvan, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəbləri, Naxçıvan Şəhər Peşə Liseyi, Regional Peşə Tədris Mərkəzi kimi peşə təhsili verən müəssisələr fəaliyyət göstərir ki, hər il yüzlərlə müdavim həmin təhsil ocaqlarını bitirərək peşə, sənət sahibi olur. Muxtar respublikada aparılan quruculuq tədbirlərindən öz payını alaraq müasir tələblərə cavab verən, maddi-texniki baza ilə təchiz olunmuş yeni binada yerləşən Naxçıvan Şəhər Peşə Liseyi də son illərdə peşə təhsilinin inkişafına öz töhfəsini verib. Liseyin direktoru Sona Əliyeva deyir ki, peşə seçərkən öz istək və marağına arxalanmaq yanaşı, həmin sahəyə bugünkü əmək bazarında nə qədər tələbat olduğunu da nəzərə almaq lazımdır. Məhz Naxçıvan Şəhər Peşə Liseyində də kurslar bu amillər nəzərə alınaraq təşkil edilir, bu günədək liseyi tədris olunan ixtisaslar üzrə 2570 nəfər bitirib. Cari ilin ötən dövründə elektrik avadanlıqlarının xidməti və təmiri üzrə elektrik montyoru peşəsi üzrə 15, qazanxana maşinisti peşəsi üzrə 80, gözətçi peşəsi üzrə 57, bərbər manikürçü 16, bərbər 16, bufetçi 21, toxucu peşəsi üzrə 13 olmaqla, ümumilikdə, 12 qrupdan 218 müdavim kursu başa vuraraq müvafiq təhsil sənədlərini alıb. Hazırda kompüter istifadəçisi və bərbər peşələri üzrə 40 nəfər təhsilini uğurla davam etdirir. Liseyin müasir tələblərə cavab verən maddi-texniki bazaya malik olması, eləcə də dərslərə ixtisaslı müəllimlərin, mütəxəssislərin cəlb edilməsi müdavimlərə peşələrə həm nəzəri, həm də praktik cəhətdən daha dərin yiyələnmələri üçün geniş imkanlar açır.



Liseyi uğurla başa vuran müdavimlərdən bir neçəsi ilə əlaqə saxlayıb, kursların mahiyyəti barədə öyrənməyə çalışıram. Babək rayonunun Cəhri qəsəbəsində yaşayan İsmayıl İbrahimov traktorçu-maşinist kursunu müvəffəqiyyətlə başa vurub. Hazırda yaşadığı qəsəbədə ixtisası üzrə çalışan İsmayıl deyir ki, indiki kimi yadımdadır, balaca olanda nənəm deyərdi ki, ay bala, çalışın əlinizi bir sənətə, peşəyə öyrədin. Peşə adamı çörəksiz qoymaz. Böyüyüb bərkə-boşa düşdükcə nənəmin sözlərinə haqq qazandırmağa başladım. Bu gün həmyaşıdlarım arasında ali təhsili olan da var, hər hansı peşəyə yiyələnən də. Fikrimcə, hansı istiqaməti, sahəni seçməyindən asılı olmayaraq, gərək, ilk növbədə, o işə həvəsin, marağın, bir də gələcək planların, məqsədin ola. Seçdiyin peşəyə könüldən bağlanmalısan ki, o yolda çəkdiyin cəfalar da sənə şirin gəlsin. Mən də günümüzün reallıqlarını, muxtar respublikamızda gedən tikinti-quruculuq işlərini nəzərə alıb traktorçu-maşinist peşəsini özümə həyat amalı seçmişəm. Bu peşənin sirlərinə dərindən yiyələnmək məqsədilə Naxçıvan Şəhər Peşə Liseyində təşkil olunan kursa yazıldım. İki ay nəzəri biliklərə yiyələndim, üçüncü ay isə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində təcrübə keçdim, burada kənd təsərrüfatı sahəsində çalışan mütəxəssislər peşənin sirlərindən məni agah etdilər.

Onu da deyim ki, müzəffər Ordumuzun Böyük Qələbəsi ilə şanlı əbədiyyət dastanı kimi tariximizə həkk edilən 2020-ci il cəhrililər üçün də olduqca əlamətdar, yaddaqalan oldu. Belə ki, ötən ilin iyun ayında Cəhriyə qəsəbə statusunun verilməsi bütün sakinləri sevindirdi, yaşayış məntəqəsində daha da yenilənmə, canlanma dövrü başlandı. Mən də qazandığım peşə sayəsində və aldığım traktorla günü-gündən gözəlləşən qəsəbəmizin hüsnünə yeni naxışlar vurmağa çalışıram.

Xanım Quliyeva da liseyin müvəffəqiyyət qazanan müdavimlərindəndir, 3 ay müddətində turizm agenti peşəsinə yiyələnməyə çalışan həmsöhbətim deyir ki, müasir dövrün tələblərini nəzərə alaraq bu peşəni seçmişəm. Fikrimcə, istənilən sahədə uğur qazanmaq üçün maraq və həvəsdən əlavə dövrlə də ayaqlaşmağı bacarmalısan. Bildiyimiz kimi, hər il minlərlə yerli və xarici qonaq muxtar respublikamıza səfər edir və sosial şəbəkələrdən də görürəm ki, hər kəs qədim diyarın zəngin təbiətindən, ulu keçmişindən, müasir görünüşündən ağızdolusu xoş sözlər səsləndirir, maraqlı paylaşımlar edir. Bu mənada, bir məkanın, diyarın tanıdılmasında, ad qazanmasında yaradılan şərait necə önəmlidirsə, düzgün təbliğat işi də bir o qədər vacib məsələdir. Təbii ki, bu gün hər birimiz bu yurdda yaşayır, buranın havasından udub, nemətindən dadırıqsa, obamızı, elimizi tanıtmaq həm də vətəndaşlıq borcumuzdur. Məhz bütün sadaladıqlarımı nəzərə alıb bu peşənin arxasınca getməyi qarşıma məqsəd qoydum. Naxçıvan Şəhər Peşə Liseyində kursa yazılan bir gündən seçdiyim sahə üzrə mütəxəssislərdən turistlərlə rəftar qaydalarını, onlara səyahət hazırlığı ilə bağlı istiqamət verməyi, biletlərin, mehmanxanalarda yerlərin sifarişi ilə əlaqədar və qonaqların maraq dairəsində, hərəkət qrafikində lazım olan digər görəcəyim işlər barədə həm nəzəri, həm də praktik məlumatlar əldə etdim. Təcrübə qazanmaq üçün muxtar respublikamızın tarixi-mədəni abidələrində, muzeylərində, otel və restoranlarında oldum, turistlərlə işləməyi öyrəndim. Gələcəkdə seçdiyim peşə sayəsində qədim yurdumuzun turizm potensialını layiqincə təbliğ edib, buraya turist cəlbinə çalışacağam.

Hüseyn Cəfərov liseydə qazanxana-maşinisti peşəsinə yiyələnib. Deyir ki, qazanxanada işləmək üçün əvvəlcədən təcrübəm olsa da, bu sahə üzrə təhsil almağım mənə çox şey öyrətdi. Məşğələlər çərçivəsində şəhərimizdə fəaliyyət göstərən müxtəlif qazanxanalarda olduq, iş prinsiplərini öyrəndik, peşəkar müəllimlərimiz öz bilik və təcrübələrini bizimlə bölüşdülər. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında qazanxana maşinisti işləyirəm. Çalışıram ki, öyrəndiklərimi gündəlik işimdə lazımınca tətbiq edim ki, həm cəmiyyətimizə, həm də dövlətimizin qurub-yaratdıqlarına xələl gəlməsin. Biz peşə sahiblərinə yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

*Məktəb illərimizdən xoş xatirə qalan, oxuyub ibrət aldığımız nağıllardan biri də, həcmi kiçik, mənası böyük, dərin olan “Kərpiçkəsən kişinin dastanı”dır. Əsərdə yer alan “Onunçün öyrətdim ki, əlimi bu sənətə, bir gün sənə əl açıb düşməyim xəcalətə” ifadəsini yüzillərboyu əməksevər insanlar həyat idealı kimi qəbul edib, kərpiçkəsən kişi kimi halal iş tutmağa, öz zəhmətləri ilə aləmi gözəlləşdirməyə çalışıblar. Müasir dövrümüzdə də bu qəbildən insanlar kifayət qədərdir. Bəli, həyat amalımız sayılan peşə, sənət, və ya ixtisas seçimi edərkən biz də kərpiçkəsən kişi kimi ürəyimizin səsinə qulaq verib, maraq dairəmizi və qabiliyyətimizi, dövrümüzün tələblərini nəzərə alaq ki, gələcəkdə peşman olmayaq. Şübhəsiz ki, seçimimizi doğru edərsək, yolumuz rəvan, gələcəyimiz işıqlı olar...*

**Nail ƏSGƏROV**

## Ahıl sakinlər üçün təbiət gəzintisi təşkil olunub

Muxtar respublikamızın ahıl sakinlərinə xüsusi diqqət göstərilir, onların sosial müdafiəsi diqqət mərkəzində saxlanılır. Xüsusən, sosial qayğıya ehiyacı olan ahıl vətəndaşların sağlamlıqlarının qorunması, məişət məsələlərinin həlli, onların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Ahıllar Evi”nin sakinləri və sosial xidmətə cəlb edilmiş tənha ahıllar mütəmadi olaraq tibbi müayinədən keçirilir, müalicələrinə köməklik göstərilir, əlamətdar günlərdə onlarla görüşlər təşkil olunur, sovqatlar təqdim edilir. Bununla yanaşı, sosial xidmət göstərilən tənha ahılların muxtar respublikanın tarixi və görməli yerlərinə gəzintilərinin, sosial könüllülərin iştirakı ilə onların yaşayış yerlərində iməciliklərin keçirilməsi ahıllara göstərilən dövlət qayğısının növbəti nümunəsidir.



Bu tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı, sosial könüllülərin iştirakı ilə bir qrup sosial qayğıya xüsusi ehtiyacı olan ahıl sakinlərin iştirakı ilə təbiət gəzintisi təşkil edilib, burada onlar üçün çay süfrəsi açılıb. Naxçıvan Aşıqlar Birliyinin üzvlərinin ifasında isə saz havalarından ibarət musiqi proqramı təqdim olunub. Daha sonra ahıl sakinlər Şahbuz şəhərində yerləşən “Ahıllar Evi”ndə olub, burada yaradılan şərait və göstərilən xidmətlərlə tanış olublar. Görüş nahar süfrəsi ətrafında davam etdirilib.

Ahıl vətəndaşlar göstərilən diqqət və qayğıya görə razılıqlarını bildiriblər.

Qeyd edək ki, ahılların muxtar respublikamızın tarixi yerlərinə, ziyarət ocaqlarına, mədəniyyət müəssisələrinə ekskursiyaları qarşıdakı dövr ərzində də davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *“Enactus”* komandasına dəstək göstərilir

Naxçıvan Dövlət Universitetinin “Enactus” komandası “Cahan” Holdinq Kommersiya Şirkətlər İttifaqının elektronika məhsulları satılan mağazasında olub və burada komanda üzvlərinə 5 blender hədiyyə edilib. Məqsəd bu blenderlər vasitəsilə tullantı məhsulu hesab olunan yumurta qabıqlarını yenidən istehsala cəlb edərək ondan gübrə hazırlanmasıdır.




Qeyd edək ki, komanda iştirakçıları arasında sağlamlıq imkanları məhdud tələbələr hazırladıqları məhsulu qablaşdıraraq “Cahan” Alış-Veriş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyətinin “Yaşıl bağ” bölməsində satışa təqdim edirlər. Məqsəd bu qəbildən olan tələbələrə istehsal vərdişləri aşılamaq, onların məşğulluğunu, eləcə də aktiv cəmiyyətə inteqrasiyasını təmin etməkdir.

***“Cahan” Holdinq Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

## Qızlar arasında üzgüçülük birinciliyi

12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə təşkil olunan yarış Naxçıvan Olimpiya İdman Kompleksinin Üzgüçülük Mərkəzində reallaşıb. Məktəblilərin yay tətilinin səmərəli təşkilinə nail olmaq, onları sağlam həyat tərzinə uyğunlaşdırmaq və üzgüçülük idman növlərinin inkişafına töhfə vermək məqsədilə keçirilən birincilikdə 20 idmançı iştirak edib. Onlar 2 yaş kateqoriyasında üzgüçülüyün sərbəst üsulu ilə 25 metr məsafə üzrə bacarıqlarını nümayiş etdiriblər.



Yarışın nəticələrinə əsasən 2006-2008-ci il təvəllüdlü üzgüçülər arasında İnci Allahverdiyeva bütün rəqiblərindən üstün olub. Rüqəyyə Hacıyeva yarışı ikinci, Almaz Rəsulova isə üçüncü sırada tamamlayıb. 2009-2010-cu il təvəllüdlülərin mübarizəsindən Cansu Bayramova qalib ayrılıb. Alsu Abdullayeva ilə Leyla Yusifova müvafiq olaraq ikinci, üçüncü sıralarda qərarlaşıblar.

Sonda ilk üçlükdəki idmançılara diplom, həvəsləndirici yer tutanlara isə fəxri fərman təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Əlirzayev Əyyub Məmməd oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kənd sakini Məmmədov Fizuli Məmməd oğlunun adına olan 126 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kənd sakini Məmmədov Məmməd Əjdər oğlunun adına olan 104 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində yaşayan Quliyev İsmayıl Kamran oğlunun adına olan sürücülük vəsiqəsi (AE № 855304) itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 613